UOT: 598.2/9-15

# XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNUN CƏNUB SAHİLLƏRİNDƏ LEYLƏKKİMİLƏR VƏ DURNAKİMİLƏR DƏSTƏLƏRİ NÖVLƏRİNİN MÜASİR VƏZİYYƏTİ

[1]HÜSEYNOV R.Ə., [2]MUXTAROV H.Ş

*Sumqayıt Dövlət Universiteti [1], AMEA Zoologiya İnstitutu [2]*

*rafiq.huseynov.59@ mail.ru, nicatmuxtarov@ mail.ru*

**Abstract:** The article provides data on studies related to the population dynamics, the current state of habitats, the nature of settlements, the consequences of environmental factors affecting the habitat of species belonging to the orders of storks and cranes living on the southern coast (Abshheron- Astara) of the Azerbaijani sector of the Caspian Sea at different times of the year (winter, spring, autumn) in 2017-2019. It is know that over the past two decades, great changes have taken place in the avifauna of the Azerbaijan coast of the Caspian Sea. İt is also known that Shahdili, Gobustan,Yenikend,the coastal waters of the Caspian Sea, Big and Small Kyzylagach bays are congregation places of birds of international importance. Since, in this coastal zone there are 8 out of 12 species of storks belonging to the order with a European conservation status. One species (Platalea leucorodia Linn., 1758 - Eurasian spoonbill) is subject to global protegtion included in all 5 international conventions.

**Keywords:** *storks, cranes, Caspian Sea, "Red Book", international conventions, conservation status, ecological faktors, population dynamics.*

## GİRİŞ

**Leyləkkimilər *(Ciconiformes)* dəstəsi**. Azərbaycanda 3 fəsiləyə 11 cinsə mənsub olan 14 növü yayılmışdır [1]. Onların 12 növü Xəzərin Azərbaycan sektorunun cənub sahillərində qeydə alınmışdır. Bu növlərdən 4-ü oturaq, 8-i isə nəsil vermək üçün gəlir. Bu 12 növün 8-i Avropa mühafizə statusuna, 1 növü isə Qlobal mühafizə statusuna malikdir. 3 növü çoxsaylı olub, qorunmur (cədvəl 1).

Dəstənin nümayəndələri əsasən dayazlıqlarda, bataqlıqlarda, su basmış qamışlıqlarda, kolluqlarda və aran meşəliklərində yaşayayırlar. Cüt-cüt və koloniya halında yuvalayırlar. Monoqamdırlar. Cücəli quşlardır. Qurbağa və çömçəquyruqlularla, su onurğasızları və onların sürfələrilə qidalanırlar.

**Durnakimilər (*Gruiformes*) dəstəsi.** Azərbaycanda 3 fəsiləyə 10 cinsə mənsub olan 14 növü yayılmışdır [1]. Tədqiqatlar zamanı bu dəstəyə mənsub olan 14 növdən 6-sı Xəzərin Azərbaycan sektorunun cənub sahillərində qeydə alınmışdır. Müxtəlif yaşayış yerlərində: səhralarda, bataqlıqlaşmış sahələrdə, körfəzlərdə, limanlarda, qamışlığın içərisində yaşayırlar. Əksər növləri monoqam, inkişaf tipinə görə cücəçıxarandır. Əsasən bitki yemi ilə qidalanırlar.

Bu növlərdən 3-ü oturaq, 3-ü isə miqrasiya vaxtı olur. Bu 6 növdən 3-ü Avropa mühafizə statusuna, 1-növü Qlobal mühafizə statusuna malikdir. 2 növü isə çoxsaylı olub qorunmur (cədvəl 1).

Mühafizə statusuna aid olan bu növlərin yaşayış yerləri və sayı getdikcə azalır [3, 4]. Qeyd edilən neqativ proseslərin qarşısını almaq üçün Xəzərin Azərbaycan sektorunun cənub sahillərini bütönlükdə əhatə edən geniş elmi-tədqiqat işlərinin aparılması məqsədəuyğun sayılmalıdır.

Tədqiqat işinin məqsədi Xəzərin Sahil zolağında Leyləkkimilər və Durnakimilər dəstəsinə mənsub növlərin sayı, yaşayış yerləri, yayılması, onlara təsir edən ekoloji amilləri öyrənmək və onların qorunma statusunu dəqiqləşdirib elmi əsaslandırılmış tədbirlər sistemi hazırlamaqdan ibarət olmuşdur.

## MATERİAL VƏ METODLAR

Tədqiqat işləri 2017-2019-cu illərdə qış, yaz və payız fəsillərində Xəzərin Azərbaycan sektorunun Cənub hissəsinin sahil zolağında aparılmışdir. Material toplamaq üçün çöl işlərinə 178 gün sərf edilmişdir. Tədqiqat ərazisi Abşeron-Qobustan (293 $km^2$ ), Cənub-Şərqi Şirvan (291,5 $km^2$), Qızılağac Milli Parkı, Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığı (180 $km^2$ ) və Lənkəran sahil zolağı

olmuşdur.

Xəzərin Böyük və Kiçik Qızılağac körfəzlərinin açıq su sahələrində quşları saymaq üçün nöqtəvi hesablama metodundan istifadə edilmişdir, nöqtələr üçün sayğı aparılan ərazilərin 5-10 m hündürlüyündə olan təpələr seçilmişdir. Quşlar 2-3 km məsafədə tam sayılmışdır. Quşların sayğı ərazisi kvadratlara bölünərək aparılmдşdır. Kvadratların sahəsi qamışlıqlarla zəngin olan su hövzələrində 0,2 $km^2$, akvatoriyalarda isə 18-20 $km^2$ götürülmüşdür. Pirman limanında, Xəzər və Ağquş subasarlarında isə quşların sayı ekstrapolyasiya yolu ilə müəyyən edilmişdir.

Quşların populyasiya sıxlığına görə kateqoriyaları A.P.Kuzyakinə [11] və Q.T. Mustafayevə [13] əsaslanıb: 1 $km^2$ sahəyə 0,1-0,9 fərd düşən populyasiya nadir; 1-10 fərd düşən adi saylı, 10-dan çox fərd düşən populyasiya isə çoxsaylı qəbul edilir.

## NƏTİCƏLƏR VƏ ONLARIN TƏHLİLİ

Aparılmış tədqiqatlar ərzində (2017-2019-cu illər) müəyyən edilmişdir ki, Leyləkkimilər dəstəsinə daxil olan 14 növdən 12-si Xəzər dənizinin Azərbaycan sektorunun cənub sahil zolağında yayılmışdır. Bu növlərin 4-ü oturaq (yəni ilboyu), 8 növü isə nəsil verməkçün . gələnlərdir.

**Adi ərsindimdik (Platalea leucorodia Linn., 1758)** həm Azərbaycanın “Qırmızı Kitab”ina, həm də Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısına daxildir. Nadir növ kimi həm Avropa, həm də Azərbaycanın mühafizə hüququna, statusuna malikdir. Adi ərsindimdik bütün 5 konvensiyaya (Ramsar-1971; CİTES-1973; Bern-1979; 2-ci əlavə; Bonn-1979; AEWA-1998) daxil edilmişdir.

**Statusu:** R (nadir növ).

**Xarici görünüşü.** Rəngi ağ, başındakı kəkil və döşünün üstü sarı-narıncıdır. Dimdiyi və ayağı qaradır. Vağlardan fərqli olaraq, uçuşda boynunu bükmür və uçuşu itidir. Cavan fərdlərdə kəkil yoxdur, dimdik qırmızıdır.

**Avropada sayı.** Yuvalamada 8-15 min cüt, qışlamada 700 fərd olduğu göstərilir.

**Azərbaycanda sayı.** 800-2500 fərd olduğu qeydə alınmışdır [16]. Nadir, sayı azalmaqda olan, yuvalayan quşdur [12]. Kürün deltasında 141 cüt qeydə alınmışdı (1996-cı il), Qızılağacda 1350 fərdə qədər (1957-1995), Mahmudçalada 2-3 cüt (1998-2000), yerli sakinlərin məlumatına görə burada 10-15 il əvvəl bir neçə cüt qeydə alınıb. Bizim tərəfimizdən Xəzərin Azərbaycan sektorunun cənub hissəsində 6 fərd qeydə alınıb (cədvəl 2).

**Dünyada yayılması.** Arealı Avrasiya (Hind-Çindən başqa) və Şimali-Şərqi Afrikadır. Cənubi Asiyada qışlayır.

**Azərbaycanda yayılması.** Azərbaycana nəsil vermək üçün gəlir. Martda gəlir, sentyabrda köçüb Afrikaya gedir.

**Çoxalması.** Koloniyalar halında yuvalayırlar. Aprelin əvvəllərində qamışlıqlarda yuva qurur. Apreldə 2-3 ağ, xırda qırmızı- qonur xallı yumurta qoyur. 24-25 gün kürt yatır. Balalar iyul ayında müşahidə olunmağa başlayır [2, 7, 8].

**Qidalanması.** Xırda balıq, buğumayaqlılar, az hallarda isə bitkilərlə qidalanır.

**Davranışı.** Uçuşu yüngül və itidir, havada boynunu azacıq əyir. Vağlara nisbətən az ehtiyatlıdır. Qaranlıqda fəaldır.

**Rəqibi və düşməni.** Xəstə və zəif olduqda iri yırtıcı quşlar və məməlilər tərəfindən ovlana bilər [6].

**Sayının dəyişmə səbəbləri.** Su hövzələrinin qurudulması quşlara məhvedici təsir göstərir, qanunsuz ovlanma da saylarına təsir edir.

**Mövcüd və zəruri qorunma tədbirləri.** Azərbaycanın “Qırmızı Kitab”ina daxil edilib. Avropa qorunma statusuna (R) malikdir. AEWA sazişinə, Ramsar, Bern, Bonn konvensiyalarına daxildir [16]. Ovlanması, balalarının və yumurtalarının toplanması qadağandır. Ağgöl və Qızılağac Milli Parklarında qorunur. Bütün çoxalma yerləri aşkar olunmalı və qorunmalıdır.

Cədvəl 1-dən göründüyü kimi, Xəzərin cənub sahil zonasında Leyləkkimilər dəstəsinə daxil olan növlərdən (12 növ) 8-i Avropa mühafizə statusuna malikdir, 4 növ isə qorunmur. Bu növlərdən 1-i (Adi ərsindimdik) bütün 5 konvensiyaya daxil edilməklə Qlobal mühafizəyə malikdir.

**Durnakimilər (*Gruiformes*) dəstəsi.**_Ölçüsünə, xarici görünüşünə və həyat tərzinə görə çox müxtəlif olan növləri əhatə edir. Başı kiçik, ayaqları və boynu uzundur. Pəncə lüləsi ön hissədən köndələn yerləşən iri qalxancıqlarla örtülüdür. Burun dəliklərində daxili arakəsmə yoxdur. Orta barmağı dimdiyindən uzundur. I-II çalma lələklərinin ucuna yaxın hissəsində köndələn ağ zolaq var. Ağız yarığının küncü gözlərinin bərabərinə çatır. Sahil quşlarıdır.

Bu növlərdən Dovdaq iri çöl və səhra quşlarıdır, digərləri həmişə bataqlaşmış sahələrlə bağlıdır, orta və xırda ölçülü növlər körfəzlərdə, limanlarda, bataqlıqlarda, qamışlığın içində yaşayırlar. Durnakimilərin əksər növləri monoqam, inkişaf tipinə görə cücəçıxarandır. Əsasən bitki yemi ilə qidalanırlar.

Azərbaycanda 3 fəsiləyə aid 14 növlə təmsil olunmuşdur [1].

Qlobal (BTMİ) mühafizə statusuna daxil edilmiş növ:

**Adi civdimdik (Crex crex Linn., 1758).** Bu növ həm də Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmişdir.

**Status:** NT (təhlükəyə yaxın növ).

**Xarici görünüşü:** Dimdiyi gödəkdir. Rəngi bozumtul-kürən, qanadları paslı-kürəndir. Bədən uzunluğu 27-30 sm, kütləsi 150 qrama qədər olur. Boğazı və döşü boz, kürəyi açıq-qəhvəyi rənglidir. Ayağı sarıdır.

**Dünyada yayılması:** Qərbi Palearktikada geniş yayılıb. Avropa, ön Asiya və Sibirin orta hissələrində yayılıb və orada yuvalayır [10]. Afrikada və Madaqaskarda qışlayır.

**Azərbaycanda yayılması:** Azərbaycanda uçub keçərkən, yazda (aprel, may aylarında), payızda isə oktyabrdan noyabrın ortalarına qədər rast gəlinir. Bizim tərəfimizdən Xəzərin cənub hissəsində 71 fərd qeydə alınıb (Cədvəl 3).

**Biotop xüsusiyyətləri:** Rütübətli, hündür otlu çəmənliklərdə və tarlalarda yaşayırlar [2, 3]. Yuvalama biotopları torflu xəndəklər, düzənliklərdə açıq göllər və alp çəmənləridir.

**Sayı:** Dünyada sayları 4-6 milyon fərd təşkil etsə də kəskin sürətdə azalmağa doğru gedir. Məsələn, bir çox Avropa ölkələrində say 1970-ci, 1990-cı illər ərzində 50 faizə qədər azalıb [17]. Rusiya populyasiyası 1138-1822 min yaşlı erkəklər (Avropa hissədə 515-1240 min), Belarusiyada 55000-60000 cütdən ibarətdir. Rusiyasız bütün Avropada sayı 87470-96920 [9] təşkil edir. Azərbaycanda sayı barədə məlumat yoxdur.

**Çoxalması:** Yuvalamağa gec gələn növlərdəndir. Cənub areala aprelin sonu, Şimal areala isə mayın sonunda hündür otlar inkişaf edəndə gəlirlər. Heç vaxt dəstə təşkil etmirlər. Ayrı cütlər şəklində yuva qurur, onu fəal qoruyurlar. Quru taxıl və mamırdan sıx kolluqda torpaq üzərində yuva qururlar. May-iyun ayında dişi 7-12 yumurta qoyur, 15-17 gün kürt yatır. Yumurtadan çıxandan bir həftə sonra balalar sərbəst yaşayır və bir yaşında cinsi yetkinliyə çatırlar [10, 15].

**Qidalanması:** Bitki və heyvan mənşəli yemlərlə qidalanir. Qidada həşəratlar, onların sürfələri, soxulcan, hörümçək və otların toxumları, taxıl dənləri üstünlük təşkil edir [2].

**Davranışı:** Çox ehtiyatlı quşdur,çətin görmək olur. Uçmağı xoşlamır, təhlükə zamanı qaçıb gizlənir. Uçuşda ayağını qatlamır, sallayır, yavaş-yavaş uçur və kolluğa düşməyi xoşlayır. Güclü səsinə görə asan tanınır [2].

**Sayının azalma səbəbləri:** Əsas bitkilərin otlaqlarla əvəzlənməsi və kombaynla ot biçilməsidir. Miqrasiya və qışlamada isə ov və elektrik xətləri çoxlu ölümə səbəb olur [14]. Yerdə yuvalamaqla əlaqədar Qərbi Avropada qunduz (M.Vison), tülkü (V.Vulpes), Şərqdə isə pişiklər tərəfindən məhv edilirlər.

**Mövcüd və zəruri qorunma tədbirləri.** Təhlükəyə yaxın növ (NT) statusu ilə Dünyada sayı hələ bərpa edilməyən növ kimi (H) Avropada qorunur [16, 17]. Əksər Avropa ölkələrində qorunma statusuna malikdir, Ramsar, Bern, Bonn konvensiyalarına və Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmişdir.

**Konvensiya və sazişlər.** Azərbaycan, quş ehtiyatlarının qorunması və səmərəli istifadəsi üçün ərazisində 15-dən çox beynəlxalq əhəmiyyətli su-bataqlıq sahələrinin və 1,2-1,3 milyon qışlayan, 10 milyondan çox köç və Xəzər sahili boyu 200 mindən çox yuvalayan su-bataqlıq quşları olan unikal bir ölkədir. Bu xüsusiyyətlərinə görə Avropada Azərbaycan yalnız Böyük Britaniyadan geri qalır, burada Qafqaza məxsus bütün endemik növlər və əksər yarımnövlər rast gəlinir [5, 9].

**Cədvəl 1**

**Xəzərin Azərbaycan sektorunun cənub sahillərində Leyləkkimilər və Durnakimilər dəstələrinə daxil olan növlərin müasir vəziyyəti, məskunlaşma xarakteri və statusu Beynəlxalq Konvensiyalara münasibəti**

| DƏSTƏLƏR / NÖVLƏR | Beynəlxalq Konvensiyalar | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Qlobal Mühafizə statusu** | **Avropa Mühafizə statusu** | **Ramsar** | **CİTES I və2 əlavə** | **Bern I və2 əlavə** | **Bonn I və2 əlavə** | **AEWA** | **Statusu** | **Məskunlaşması (mövsimi xarakter əlaməti)** |
| 1 | 2 | 3 | | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **1.Dəstə: Leyləkkimilər** | | | | | | | | | |
| 1.İri danquşu | | H | + | | + | + | + | | S |
| 2.Kiçik danquşu | | H | + | | + | + | + | | N |
| 3.Adi qarıldaq | | H | + | | + | | | | N |
| 4.Böyük ağ vağ | | S | + | | + | | | | S |
| 5.Kişik ağ vağ | | S | + | | + | | | | S |
| 6.Boz vağ | | S | + | | + | | | | S |
| 7.Kürən vağ | | D | + | | + | + | + | | N |
| 8.Sarı vağ | | D | + | | + | | | | N |
| 9. Misir vağı | | S | + | | + | | | | N |
| 10. Adi qaranaz | | D | + | | + | + | + | | N |
| 11.Adi ərsindimdik | | R | + | + | + | + | + | n,a | N |
| 12. Ağ leylək | | H | + | | + | + | + | | N |
| **II.Dəstə: Durnakimilər** | | | | | | | | | |
| 1.Adi qamış fərəsi | | S | + | | + | + | + | | S |
| 2.Cırtdan qamış fərəsi | | R | + | | + | + | + | | Tr |
| 3.Adi civdimdik | NT | H | + | | + | + | | | Tr |
| 4. Adi su fərəsi | | S | + | | + | | | | S |
| 5.Adi sultan quşu | | L | + | | + | | | SÇ | Tr |
| 6.Adi qaşqaldaq | | S | + | | + | + | + | | S |

**Qeyd:** **CR**- böhran vəziyyətində olan növ; **EN**-təhlükədə olan növ; **VU**-təhlükəyə həssas növ; **NT**-təhlükəyə yaxın növ; **NE**-sayı məlum deyil; **DD**-haqqında kifayət qədər məlumat olmayan növ; **D**-sayı azalan növ; **R**-nadir növ; **H**-keçmişdə azalıb,sayı hələ bərpa olunmayıb; **L**-kiçik ərazidə toplaşan növ; **S**-qorunmayan növ; **n**-nadir növ (1 $km^2$ –də 1 fərddən az); **a**-Azərbaycanın "Qırmızı Kitab"ı; **nk**- nəsli kəsilmək üzrə (10 $km^2$ –də 1 fərddən az) **b**- Beynəlxalq Təbiəti Mühafizə İttifaqınm Qırmızı Siyahısı; **x-rast gəlinmir; k**-köç vaxtı rast gəlinir; **sç**- sayı şoxdur; **S**-oturaq; **N**-nəsil vermək üçün gəlir; **H**-qışlamaq üşün gəlir; **Tr**-miqrasiya dövründə olur; **Er**-azıb gəlir.

Buna görə də Azərbaycan fəal sürətdə beynəlxalq konvensiya və sazişlərin iştirakçısına çevrilir. 2000-ci ildə Avropa Şurasına qəbulla əlaqədar olaraq Azərbaycan dövləti ətraf mühitin, faunanın, o cümlədən, quşların öyrənilməsi və qorunması ilə əlaqədar bir sıra konvensiya və saziş imzalamışdır.

Beynəlxalq sazişlərin imzalanması və ratifikasiyası ölkənin dünya üzrə təbii ehtiyatlarının, o cümlədən, quşların qorunması və səmərəli istifadəsi prosesinə cəlb edir.

Cədvəl 2

**Cənub-Şərqi Şirvan zolağında Leyləkkimilər və Durnakimilər dəstələrinə daxil olan növlərin paylanması (2018-ci il, yay mövsümü)**

| SAHƏLƏR / DƏSTƏLƏR; NÖVLƏR | Pirsaat buxtası | Şirvan Milli Parkının həmsərhəd sahil suları | Xəzərin Cənub-Şərqi Şirvanın cənub qurtaracağına həmsərhəd sahil suları | Böyük və Kiçik Qızılağac gölləri | Yenikənd subasarı və Şirvanovka laqunu | Cəmi | M±m |
|---|---|---|---|---|---|---|---|
| **1. Dəstə: Leyləkkimilər** | | | | | | | |
| 1. Kişik ağ vağ | 0 | 0 | 0 | 300 | 480 | 780 | 156±12,5 |
| 2. Boz vağ. | 0 | 0 | 52 | 98 | 18 | 168 | 33,6±5,8 |
| 3. Kürən vağ | 0 | 0 | 19 | 14 | 12 | 45 | 9±3 |
| 4. İri danquşu | 0 | 0 | 20 | 14 | 0 | 34 | 6,8±2,6 |
| 5. Kiçik danquşu | 0 | 0 | 18 | 16 | 31 | 65 | 13±3,6 |
| 6.Adi qarıldaq | 0 | 0 | 0 | 7 | 0 | 7 | 1,4±1,2 |
| 7. Böyük ağ vağ | 0 | 0 | 480 | 0 | 180 | 660 | 132±11,5 |
| 8. Kürən vağ | 0 | 0 | 680 | 0 | 0 | 680 | 136±11,7 |
| 9. Adi ərsindimdik | 0 | 0 | 6 | 0 | 0 | 6 | 1,2±1,1 |
| 10. Adi qaranaz | 0 | 0 | 430 | 0 | 388 | 818 | 163,6±12,8 |
| **II. Dəstə: Durnakimilər** | | | | | | | |
| 1. Adi sultan quşu | 0 | 0 | 126 | 248 | 56 | 430 | 86±9,3 |
| 2. Adi su fərəsi | 0 | 0 | 29 | 34 | 16 | 79 | 15,8±4 |
| 3. Adi qamış fərəsi | 0 | 0 | 0 | 38 | 14 | 52 | 10,4±3,2 |
| 4. Adi sığırçı | 0 | 0 | 15 | 0 | 0 | 15 | 3±1,7 |

Cədvəl 3

**Qışda Qızılağac Milli Parkının Kiçik Qızılağac Təbiət Yasaqlığının və Lənkəran sahil zolağının su hövzələrində Leyləkkimilər və Durnakimilər dəstələrinə daxil olan növin paylanması (2019-cu il)**

| SAHƏLƏR / DƏSTƏ və NÖVLƏR | Kiçik Qızılağac Körfəzi və Kiçik Qızılağac Yasaqlığı | Xəzərin Lənkəran sahil zonası | Cəmi | M±m |
|---|---|---|---|---|
| **1.Dəstə: Leyləkkimilər** | | | | |
| 1.İri danquşu | 11 | 0 | 11 | 5,5±2,3 |
| 2.Kiçik danquşu | 40 | 16 | 56 | 28±5,3 |
| 3. Böyük ağ vağ | 783 | 22 | 805 | 402,5±20,1 |
| 4. Kişik ağ vağ | 390 | 0 | 390 | 195±14 |
| 5. Boz vağ | 71 | 3 | 74 | 37±6,1 |
| 6.Ağ leylək | 18 | 0 | 18 | 9±3 |
| **II. Dəstə: Durnakimilər** | | | | |

Beynəlxalq konvensiyaların məqsədi beynəlxalq konteksdə ətraf mühitin qorunması üzrə milli hərəkatların genişləndirilməsindən ibarətdir. Bir çox flora və faunadan olan növlərin populyasiyaları ölkələr arasında bölünmüşdür və hər il həyatlarının müəyyən dövrlərində onlar sərhədləri keçərək müxtəlif ölkələrdə olur və yaşayırlar.

XVII-XX əsrlərdə insanın təsərrüfat fəaliyyəti və son 100 ildə bəşəriyyətin sürətli artımı təbii ehtiyatlardan intensiv istifadə fauna və floraya təsirsiz ötüşməmişdir. Nəticədə bu və digər amillər quşların yuvalama, qidalanma, qışlama sahələri azalmış, bəzi yerlərdə yoxa çıxmasına səbəb olmuşdur. Bütün bunlar (antropogen amillərin təsiri) növün itirilməsinin səbəblərindən birini təşkil edir. Belə vəziyyət ölkələrin birgə əməkdaşlığını, bir-birinə yardımını və birgə mühafizəni tələb edir.

Quşların mühafizəsinin beynəlxalq miqyasda təşkili aviafaunanın sayca azalması ilə bağlı olmayıb, həm də quşların miqrasiya dövründə bir-birindən çox uzaqda yerləşən müxtəlif ölkələrin ərazisinə köç edib birində yuvalamaları, digərində isə qışlamaları ilə əlaqədardır.

Beləliklə, quşların mühafizəsi və ehtiyatlarından səmərəli istifadəsi məqsədi ilə 1966-cı ildə YUNESKO tərəfindən yaradılan Beynəlxalq Təbiəti Mühafizəsi İttifaqı (BTMİ) ilk beynəlxalq sənədləri hazırladı [9].

Bu təşkilatın Qırmızı siyahısına nadir və nəsli kəsilməkdə olan növlər, onların müxtəlif ölkələrindəki arealları daxil edildi. Bu kitabın ardınca milli Qırmızı Kitabların tərtib edilməsinə başlandı. Hazırda quşlar üzrə Beynəlxalq Qırmızı Siyahı BTMİ, QBMS, BTMF (Beynəlxalq Təbiəti Mühafizə Fondu) tərəfindən birlikdə hazırlandı. Təbiətin mühafizə fəaliyyətini beynəlxalq miqyasda daha səmərəli etmək məqsədilə bu təşkilatlar müxtəlif beynəlxalq konvensiyalar və sazişlərin bağlanmasına təşəbbüs göstərirlər.

Bütün dünyada aviafaunanı mühafizə etmək üçün bir sıra konvensiyalar və sazişlər imzalanmışdır. Azərbaycan ornitofaunası üçün əhəmiyyət kəsb edən və buna görə də Azərbaycan dövləti tərəfindən imzalanan əsas konvensiyalar haqqında aşağıda məlumat verməyi məqsədəuyğun sayırıq:

**Ramsar konvensiyası:** Su-bataqlıq quşları üçün yaşayış yeri kimi beynəlxalq əhəmiyyətə malik olan və müvafiq kriterilərə cavab verən su sahələrini və oradakı aviafaunanı qoruyub saxlamaq məqsədilə 1971-ci ildə İranın Ramsar şəhərində eyni adlı konvensiya imzalandı. Bu konvensiya biomüxtəlifliyin qorunmasına görə ən effektli qlobal konvensiya sayılır. 1999-cu ilin avqust ayında 116 ölkə bu konvensiyaya qoşulmuşdur. Tərəflərin konferensiyası 3 ildən bir çağırılır. Azərbaycan 2000-ci ildə bu sazişi imzalayıb. Azərbaycan ornitofaunasından bu konvensiyaya bütün su-bataqlıq və su mühiti ilə bağlı olan quş növləri daxil edilmişdir.

Azərbaycanın "Qırmızı Kitab"ından 7 dəstəyə mənsub 14 növ bu konvensiyanın siyahısına daxildir. Azərbaycan ornitofaunasına aid Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Siyahısındakı 13 növ (4 dəstəyə) konvensiyaya daxildir [9].

CİTES *(Nəsli kəsilmək təhlükəsində olan vəhşi fauna və flora növlərin ticarətinin məhdudlaşdırılması haqqında konvensiya)* konvensiyası: 1973-cü ildə Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) təşəbbüsü ilə 100-dən çox ölkənin iştirakı ilə Vaşinqtonda, fauna və floranın yox olmaq təhlükəsində olan növlərin beynəlxalq ticarəti haqqında konvensiya imzalandı. Bunun əsas səbəbi təbiətdən külli miqdarda heyvan və quş növlərinin tutulub kommersiya məqsədilə başqa ölkələrə ixrac edilməsi idi.

Azərbaycan 1998-ci ildə bu konvensiyanı imzaladı. Azərbaycanın ornitofaunasından 14 dəstəyə, 22 fəsiləyə aid 56 növ SİTES-in əlavələrinə daxildir. Azərbaycanın "Qırmızı Kitab" ina daxil olan quşların 5-i əlavəyə, digərləri II əlavəyə daxil edilmişdir.

**Bonn konvensiyası:** Bu konvensiya miqrasiya edən vəhşi heyvanların mühafizəsi haqqındadır. Məqsədi havada, dənizdə və quruda yaşayan və bütün miqrasiya yollarında növlərin mühafizəsidir. 1979-cu ildə Almanıyanın Bonn şəhərində imzalanıb.

Azərbaycan ornitofaunasına aid 15 növ (4 dəstə) konvensiyanın I əlavəsinə daxildir ki, istisna hallarda onların təbiətdən götürülməsi qadağandır. 1-ci və 2-ci əlavəyə birlikdə Azərbaycanın ornitofaunasına mənsub 217 növ daxil edilib (13 dəstə). Azərbaycanın "Qırmızı Kitab"ından isə 8 növ 1-ci əlavəyə, 1-ci və 2-ci əlavələrə birlikdə 25 növ daxil edilmişdir.

**Bern konvensiyası:** Avropanın vəhşi təbiətini və təbii yaşayış yerlərini qoruyub saxlamaq haqda 1979-cu ildə Bern (İsveçrə) şəhərində imzalanıb. Azərbaycan 2000-ci ildə konvensiyaya üzv ölkə oldu. Konvensiyanın I əlavəsinə bitkilər, qalanlarına heyvanlar aiddir.

Azərbaycanın ornitofaunasından 2-ci və 3-cü əlavələrə 19 dəstəyə mənsub 359 növ daxil edilib. 9 növün (ala qarğa, qara qarğa, alabaxta, göyərçin, zağca, dolaşa, gümüşü qağayı, dam sərçəsi, qara sığırçın, ala sağsağan) istifadəsinə isə məhdudiyyət qoyulmur.

Azərbaycanın "Qırmızı Kitab"ından 32 növ 3-cü əlavəyə daxildir. Azərbaycanın ərazisində olan və BTMİ-nin siyahısındakı 23 növ 2-ci və 3-cü əlavələrə daxil edilmişdir.

**AEWA (Afro-Avrasiyada köç edən su-bataqlıq quşlarının qorunub saxlanması haqqında saziş) sazişi.** Afrika-Asiyada köç edən su-bataqlıq quşlarının qorunub saxlanılması haqda 1998-ci ildə (Haaqa) imzalanıb. Bu konvensiyanın məqsədi Afro-Avrasiya köç yollarında su-bataqlıq quşlarının köç edən populyasiyalarının, o cümlədən, onların yaşayış yerlərinin qorunub saxlanılması və bərpasıdır. Saziş 120 ölkənin 50 milyon km$^2$ ərazisində 170 növə aiddir.

Azərbaycan 2000-ci ildə bu sazişi imzalayıb. Azərbaycanın ornitofaunasından 9 dəstəyə aid 107 quş növü bu siyahıya daxildir. Bu növlərdən 12-si (5 dəstəyə aid) Azərbaycanın "Qırmızı Kitab"ina, 13 növ (4 dəstəyə aid) isə Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) siyahısına daxil edilmişdir [1, 17].

Xəzərin sahil zolağında BTMİ-yə, AMS-na, AQK-yə və Beynəlxalq konvensiyalara daxil edilmiş Leyləkkimilər, Durnakimilər və Cüllütkimilər dəstələrinə daxil olan növlərin əsas toplantı yerləri Böyük Qızılağac Körfəzi, Kürün deltası və Yenikənd subasarıdır.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Son 20 ildə Xəzərin Azərbaycan sahillərinin ornitofaunasında böyük dəyişikliklər əmələ gəlmişdir. Göstərilən ərazinin ornitofaunasından nadir və nəsli kəsilməkdə olan 66 quş növü öyrənilmiş və aşağıdakı nəticələr əldə edilmişdir:

1. Xəzərin Şahdili, Qobustan, Yenikənd subasarlarına həmsərhəd sular, Böyük və Kiçik Qızılağac körfəzləri beynəlxalq əhəmiyyətə malik quşların toplantı yerləridir.
2. Xəzərin Azərbaycan sektorunun cənub sahil zolağında növlərə neqativ təsir edən əsas amil onların yaşayış yerlərində özəl şirkətlər və fiziki şəxslər tərəfindən intensiv tikinti işlərinin aparılması, mühərrikli qayıqların intensiv hərəkətidir. Qeyd edilən məntəqələrdən Puta (Dərin Özüllər zavoduna yaxın laqunlar da daxil olmaqla), Səngəçal, Ələt, Lənkəran sahil zolağı növlərin beynəlxalq əhəmiyyətə malik sayda toplantı yeri kimi əhəmiyyətini itirmişdir.
3. Xəzərin Azərbaycan sektorunun cənub sahil zolağında Leyləkkimilər dəstəsinə aid, rast gəlinən 12 növdən 8-i Avropa mühafizə statusuna malikdir. Bir növ (Adi ərsindimdik) bütün 5 beynəlxalq konvensiyalara daxil edilməklə Qlobal mühafizə statusuna aiddir.
4. Xəzərin Azərbaycan sektorunun cənub sahil zolağında Durnakimilər dəstəsinə aid, rast gəlinən 6 növdən 3-ü Avropa mühafizə statusuna malikdir. Bir növ (Adi civdimdik) 3 beynəlxalq konvdensiyalara daxil edilməklə Qlobal mühafizə statusuna aiddir.
5. Azərbaycan ornitofaunasına mənsub Leyləkkimilər dəstəsinə daxil olan 14 növdən 12-si Durnakimilər dəstəsinə daxil olan 14 növdən 6-ı Xəzərin sahil zolağında qeydə alınmışdır.

Xəzərin Azərbaycan sektorunun cənub sahil zolağında Leyləkkimilər və Durnakimilər dəstəsinə daxil olan, Qlobal və Avropa statusuna malik olan növləri qoruyub saxlamaq və yaşayış ərazilərini mühafizə etmək üçün aşağıda göstərilən tədbirlərin həyata keçirilməsi vacibdir.

1. Xəzərin sahil zolağında beynəlxalq və Avropa statuslarına malik növlərin yaşayış yerlərində özəl şirkətlər və fiziki şəxslər tərəfindən tikinti işlərinin aparılmasını qadağan etmək.
2. Şirvan Milli Parkında Böyük və Kiçik Qızılqaz göllərində, Qızılağac Milli Parkının su hövzələrində (Pirman limanı, Xəzər və Ağquş subasarları) quşların yaşayışına və məskunlaşmasına mane olan köhnə sıx qamışlıqları biçmə yolu ilə azaltmaq.
3. Qızılağac Milli Parkının sərhəq və magistral kanalını bərpa etmək və magistral kanal vasitəsilə Pirman limanı, Xəzər və Ağquş subasarlarına Kürdən suyun vurulmasını bərpa etmək,
4. Abşeron Milli Parkının sahəsini genişləndirmək,

5. Xəzərin sahil zolağında məskunlaşan quşların, o cümlədən ekosistemlərin tamamilə yox olması təhlükəsinin qarşısını almaq məqsədilə bu sahələrdə iş aparan (qanunu və ya qanunsuz) özəl şirkətlərin və fiziki şəxslərin tikinti işlərinin aparılmasının Dövlət tərəfindən qadağan edilməsi

6. Xəzərin sahil boyu quşların axırıncı yaşayış yerləri olan bataqlıqların, laqunların, gölməçələrin, nəm qumsallıqların fiziki şəxslər və özəl şirkətlər tərəfindən (turizmin inkişaf etdirilməsi adı altında) gəlir əldə etmək məqsədilə məhv edilərək çimərliklər və digər istirahət obyektlərinə çevrilməsinin tamamilə qadağan edilməsi,

7. Kürün çayının deltasının, Yenikənd subasarının və onlara həmsərhəd Xəzər dənizinin sahil sularının Azərbaycanda su-bataqlıq quşlarının miqrasiya və qışlama vaxtı ən böyük toplantı yerlərindən olduğunu nəzərə alaraq qoruq elan olunması məqsədəuyğundur,

8. Kürün deltasının, Yenikənd subasarının və onlara həmsərhəd Xəzər dənizinin sahil sularının Azərbaycanda su-bataqlıq və sahil quşlarının miqrasiya və qışlama vaxtı ən böyük toplantı yerlərindən olduğundan qoruq yaradılması məqsədəuyğundur.

Yekün olaraq qeyd etmək olar ki, Azərbaycanın ornitofaunasına mənsub olan (407 növ) [1] növlərin 24-ü Qlobal Mühafizə statusuna malikdir. Avropa Mühafizə statusuna malik 154 növdən yalnız 48-i ən yüksək Qlobal Mühafizə statusu (CR,VU,EN) hüquqlarına sahibdirlər. Yəni, 3 növ (CR) böhran vəziyyətindədir, 13 növ (EN) təhlükədədir, 29 növ (VU) təhlükəyə həssasdır, 2 növün sayı məlum deyildir (NE), 1 növ haqqında isə kifayət qədər məlumat yoxdur (DD).

Azərbaycanın ornitofaunasından olan növlər-nadir (R), sayı azalan (D), keçmişdə sayı azalan və hələ də bərpa olunmayan (H), kiçik ərazidə toplanan növ (L), statusu kimi Avropa Mühafizə hüquqlarına sahibdirlər. Qalanları isə Avropada qorunmayan növlərdir (S).

Onu da qeyd etmək lazımdır ki, ornitofaunadan 8 növ quş bütün 5 konvensiyaya, 9 növ isə heç bir konvensiyaya daxil edilməmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan faunasının taksonomik spektri (Onurğalılar). Bakı,“ Elm və təhsil”, 2020, 144s
2. Azərbaycanın heyvanlar aləmi. Onurğalılar. III cild. Quşlar sinfi-Aves, Bakı, “ Elm”, 2004, s. 261-411.
3. Azərbaycan Respublikasının coğrafiyası. I cild. Fiziki coğrafiya. Bakı, 2014. s. 236-303.
4. Azərbaycan Respublikasının “Qırmızı Kitab”ı, IV bölmə. Quşlar (Aves), Bakı, 2013, s. 261-405.
5. Babayev İ.R. Xəzər dənizinin Azərbaycan sahil zolağının cənub hissəsində su- bataqlıq quşları // Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi praktiki konfransın tezisləri. Bakı, 2003, s. 144-146.
6. Babayev İ.R., Əsgərov F., Əhmədov F.T. Bioloji müxtəliflik: Xəzərin Azərbaycan hissəsinin sudaüzən quşları. Kitab. Nurlar nəşriyyatı - Poliqrafiya mərkəzi, Bakı, 2006, 69 s.
7. Babayev İ.R., Rəcəbova S.S., Səmədova S.H. Xəzər dənizinin Azərbaycan sahil zolağında qışlayan nadir və nəsli kəsilməkdə olan quşların yayılması, sayı və onlara təsir edən antropogen amillər. Məqalə. AMEA Zoologiya İnstitutunun əsərləri, Cild 33 № 2, Bakı, “Müəllim”, 2015, s. 5-16.
8. Mustafayev Q.T., Məmmədova N.A. Ornitologiya. Bakı: “Çaşıoğlu”, 2005, 419 s.
9. Sultanov E.H., Ağayeva N.C., Laxman L., Broynlix A., Herkenrat P., Sollivan C.O. Xüsusi qorunan və mühüm ornitoloji ərazilər haqqında vəsait. Azərbaycan Ornitoloji Cəmiyyəti. Bakı, “ Defra”, 2005, 80 s.
10. Виноградов В.В., Морозкнн Н.Н. Типы угоднй Кызыл-Агачского заповедннка и их качественная оценка как среды обнтання водоплавающнх, птиц // Прпронаф.Среда и птнцы побережнй Касппйского моря и прнлежащнх ннзменностей. ТР. Кызыл-Агачского, Заповедннка. Баку, 1979 а, вып.1, с.17-40.
11. Кузякнн А.П. Зоогеографня СССР. Уч. Зап. Моск. пед. Нн-та, Том IX.М., 1962, 182 с.
12. Мустафаев Г.Т. Зпмнее населенне птнц Ленкоранской ннзменностн // Орннтологпя, вып. 10, М., Моск. ун-т, 1972, с. 280-287.
13. Мустафаев Г.Т. Птнцы наземных экоснстем Азербайджана. Автореф.док.дпссер Москва, 1985, 54 с.

14. Сатуннн К.А. Материалы к иознанню птиц Кавказского края // Заи. Кавк.отд. Русского геог. об-ва, 1907, кН.26, вып. 3, с. 1-144.
15. Тугарннов А.Д., Козлова Е.В.Зимовка птиц в Талыше // Тр.Аз.Фан СССР, Зоол, Серия. 1935, т. XXIII, 124 с.
16. Birds in Europe. Birdlife conservation series N 12. Birdlife international. 2004. 374 p.
17. Ward J/M/ Hagemeijer, Michael J.Blair. "The EBCC atlas of European breeding birds- their distribution and abundance". Published by T8 AD Poyser, London, 1997.